# Qarabağda ekoloji tarazlığın bərpası müzakirə edilib



**_Qarabağ Dirçəliş Fondu ilə ekologiya istiqamətində fəaliyyət göstərən qeyri-hökumət təşkilatları arasında Qarabağda ətraf mühitə vurulmuş zərərin aradan qaldırılması və ekoloji tarazlığın bərpasına həsr olunan fikir mübadiləsi görüşü keçirilib._**

Qarabağ Dirçəliş Fondundan verilən məlumata görə, tədbir zamanı Ekologiya və Təbii Sərvətlər nazirinin müavini Vüqar Kərimov, Azərbaycan Respublikası QHT-lərə Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Azər Allahverənov, IDEA İctimai Birliyinin icraçı direktoru Surxay Şükürov, Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Ətraf mühitin və təbii sərvətlərin tənzimlənməsi şöbəsinin məsul şəxsi Murad Şahverdiyev, Qarabağ Dirçəliş Fondunun Fandreyzinq və Kommunikasiya şöbəsinin müdiri Aybəniz İsmayılova erməni təcavüzü nəticəsində törədilən ekosid, ekoloji tarazlığın təmin olunmasında vətəndaş cəmiyyətinin rolu və digər mövzularda çıxış ediblər.

İşğal dövründə Qarabağda "Azərbaycan Respublikasının Qırmızı Kitabı"na daxil edilmiş çox sayda fauna və floranın əksəriyyətinin artıq məhv olunmasından bəhs edən tədbir iştirakçıları meşələrin, endemik flora və faunanın bərpası, yerli ağac növlərinin əkilməsi və ekoloji terrorun aradan qaldırılması üçün bütün eko təşkilatlarını, eyni zamanda cəmiyyətin bütün üzvlərini fondun "Qarabağı daha yaşıl bərpa edək" hərəkatına qoşulmağa dəvət etmişlər.



Tədbirin sonunda Fondun PR və Kommunikasiya üzrə Koordinatoru Pərvin Məmmədovanın moderatorluğu ilə sual-cavab sessiyası keçirilib.

Müzakirələr zamanı işğaldan azad edilən ərazilərdə meşələrin bərpa olunması ilə yanaşı, bitki örtüyünün, torpaq ehtiyatlarının qorunmasına, sürüşmələrin və eroziyanın qarşısının alınmasına, çay və çay sahili zonaların mühafizəsi məsələlərinə xüsusi diqqət yetirilib.

Yaşadığı yerdən asılı olmayaraq hər bir soydaşımızın işğaldan azad edilən ərazilərin bərpası naminə Qarabağ Dirçəliş Fonduna ianə edərək fondun bu istiqamətdə göstərdiyi təşəbbüslərə qoşulması vətənpərvərlik nümunəsidir. Ən başlıcası, bu təşəbbüs çərçivəsində əkilən ağaclar birliyimizin Qarabağda davamlı gələcəyə dəstəyini simvollaşdıracaq. Gələcək nəsillər bu meşələrin yaratdığı kölgə və təbii istirahət zonalarından zövq alacaq və bütün bölgə bir daha çiçəklənən və sağlam ekosistemdən faydalanacaq.

Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə yaradılan Qarabağ Dirçəliş Fondu işğaldan azad edilmiş ərazilərin bərpası və yenidən qurulması, dayanıqlı iqtisadiyyata və yüksək rifaha malik regiona çevrilməsi istiqamətində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsini və sərmayələrin cəlb edilməsini, bu sahədə dövlət-özəl tərəfdaşlığının inkişaf etdirilməsini, habelə ölkə daxilində və xaricində zəruri təşviqat işlərini həyata keçirən publik hüquqi şəxsdir.

***"Xalq qəzeti"***

Xalq qəzeti.- 2021.- 12 oktyabr.- S.14.